*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

*Heydər Əliyev.*



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 3-4 (9187-9188) | 19 fevral 2015-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 40 qəpik


## "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi:

**2.1.** Strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində əlaqələndirməni təmin etsin;

**2.2.** Strategiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər barədə ildə bir dəfədən az olmayaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

***Bakı şəhəri, 26 yanvar 2015-ci il***

# HESABAT YIĞINCAĞI KEÇİRİLMİŞDİR

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 10-da Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. Bununla əlaqədar Qazax rayonunda hesabat yığıncağı olmuşdur.**

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyev adına parka gələrək ümummilli liderin abidəsi önünə gül dəstələri qoymuşlar.

Sonra Gənclər Mərkəzinin akt zalında yığıncaq öz işinə başlamışdır. Hesabat yığıncağında rayon ictimaiyyətinin nümayəndələri, idarə və müəssisə rəhbərləri, sahibkarlar iştirak etmişdir.

Tədbir iştirakçıları hesabat ilində ayrı-ayrı müəssisələr tərəfindən rayonda istehsal olunmuş məhsullardan ibarət sərgiyə baxmışlar.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov Qazax rayonunun 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi ilə çıxış etmişdir. Qeyd etmişdir ki, yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədirliyi ilə Nazirlər Kabinentinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair hesabat yığıncağı və yanvarın 27-də isə "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfrans keçirilmişdir. Prezident İlham Əliyev bildirmişdir ki, 2014-cü ildə ölkəmizin qarşısında duran bütün vəzifələr uğurla icra edilmiş, sosial-iqtisadi proqramlar yerinə yetirilmişdir.



Hesabat dövründə respublikamızda gedən dinamik inkişaf strategiyası Qazax rayonunda da davam etdirilmiş və 2014-cü ildə demək olar ki, bütün sahələr üzrə uğurlu göstəricilər qazanılmışdır. Hesabat dövründə əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində yaddaqalan tədbirlər həyata keçirilmiş, bununla bağlı mühüm işlər görülmüşdür. Rayonda "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa və quruculuq işləri 2014-cü ildə də uğurla həyata keçirilmişdir.

Məruzə ətrafında çıxışlar olmuşdur. Rayon təhsil şöbəsinin müdiri Əhməd Dərgahquluyev, rayon mərkəzi xəstəxanasının baş həkimi Arzu Novruzov, paylayıcı elektrik şəbəkənin rəis əvəzi İbadət Göşşüyev, su-kanal idarəsinin rəisi Abdulla Qocayev çıxış edərək hesabat dövründə görülən işlərdən söz açmışlar.

Tədbir iştirakçıları əvvəlcədən zalda quraşdırılmış mikrafon vasitəsilə öz təkliflərini söyləmişlər. Səslənən təkliflər barədə rayon rəhbərliyi öz fikirlərini bildirmişdir.

Milli Məclisin üzvü İlyas İsmayılov, Prezident Administrasiyasının məsul işçisi Habil Əzənmədov hesabat yığıncağında iştirak və çıxış etmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə yığıncaq iştirakçıları adından müraciət qəbul olunmuşdur.

Rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov hesabat yığıncağına yekun vuraraq qarşıda duran vəzifələrdən, həyata keçiriləcək işlərdən danışmışdır.

**Elçin İSMAYIL**

## 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair Qazax rayonu İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərovun

# HESABAT MƏRUZƏSİ

**Bildiyiniz kimi yanvar ayının 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının sədirliyi ilə Nazirlər Kabinentinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə və 27-də "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfrans keçirilmişdir.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları bildirmişdir ki, 2014-cü ildə ölkəmizin qarşısında duran bütün vəzifələr uğurla icra edilmiş, bütün sosial-iqtisadi proqramlar yerinə yetirilmişdir. Keçən il dünyada və bölgədə mürəkkəb proseslər baş versə də, gərginlik bütün dünyada artsa da Azərbaycan xalqı 2014-cü ildə təhlükəsizlik şəraitində yaşamışdır. Həm iki tərəfli, həm çoxtərəfli formatda uğurlu xarici siyasət aparmış, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınmış, beynəlxalq nüfuzu artmışdır. Azərbaycan son 11 ildə dünyada iqtisadi artım tempinə görə ən sürətlə inkişaf edən ölkə olmuş, "Davos Dünya İqtisadi Forumu" hesabatına görə 2014-cü ildə Azərbaycan iqtisadiyyatı dünyada rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görülmüşdür. Biz dünyanın ən rəqabətli 40 iqtisadiyyatı arasındayıq. Ötən il iqtisadiyyatımız təxminən 3 faiz artmışdır. Hansı ki, bəzi ölkələrdə artım yoxdur, əksinə tənəzzül vardır, artım olan ölkələrdə isə bu, 1 faizə qədərdir. Qeyri neft sektorumuz 7 faiz artmış, infilyasiya cəmi 1,4 faiz olmuş, əhalinin pul gəlirləri isə 4,8 faiz artmışdır. Göründüyü kimi əhalinin pul gəlirləri infilyasiyanı 3 dəfədən çox üstələmişdir. İl ərzində ölkə iqtisadityyatına 27 milyard dollar invenstisiya qoyulmuşdur. Onlardan 16 milyardı daxili sərmayədir. Eyni zamanda qoyulan 11 milyard dollar xarici sərmayə göstərir ki, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi qalmaqdadır. Hazırda Azərbaycanın 50 milyarddan çox valyuta ehtiyatı vardır. Ötən il əməkhaqqı, pensiya artmışdır. İndi orta aylıq əməkhaqqı 600 dollara yaxınlaşır, 400 min insana ünvanlı sosial yardım verilir. Yoxsulluq 5 faiz səviyyəsindədir. İşsizlik 5 faizdən aşağıdır. 2014-cü ildə 123 min yeni iş yeri açılmışdır, onlardan da təxminən 100 mini daimi iş yeridir. Sürətli iqtisadi-inkişaf demoqrafiq vəziyyətə müsbət təsir etmiş, ötən il Azərbaycanda əhalinin sayı 116 min nəfər artmışdır. Azərbaycanda makroiqtisadi vəziyyət sabitdir. Bu gün manat dünya miqyasında ən sabit valyutalardan biridir. Keçən il Azərbyacanda "Sənaye ili" elan edilmişdir və 230 dan çox sənaye müəssisəsi yaradılmışdır. "Cənub qaz dəhlizi"nin təməli qoyulmuşdur. Bu layihə bizim uzunmüddətli inkişafımızı daha da sürətləndirəcəkdir.

Ötən il sosial layihələrin icrası təmin edilmiş, 60-dan çox tibb mərkəzi, 50-dən çox məktəb binası tikilib istifadəyə verilmişdir. Sosial sahə həmişə prioritet olmuşdur. Əgər 2004-cü ildə Azərbaycanda əməkhaqqı 100 dollar idisə, hazırda bu, 565 dollardır. Orta aylıq təqaüd 24 dollar idi, hazırda 220 dollardır. 2004-2014-cü illərdə 2900 məktəb binası, 560 tibb müəssisəsi tikilmiş və ya təmir edilmişdir. Regionlarda 41 Olimpiya İdman Mərkəzi və 30 Gənclər Mərkəzi tikilmişdir. Bu illər ərzində məcburi köçkün ailələri üçün 84 qəsəbə yaradılmışdır. Bu məqsədlər üçün 2,6 milyard dollar vəsait ayrılmış, 1 milyon 360 min yeni iş yeri yaradılmışdır. Son 11 il ərzində 23 elektrik stansiyası tikilmiş, 64 min müəssisə yaradılmış, 10 min km yol çəkilmiş, 340 körpü və bölgələrdə 6 aeroport tikilmişdir. Onlardan dördü beynəlxalq aeroportdur.

"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa, quruculuq işləri əvvəlki illərdə olduğu kimi 2014-cü ildə də Qazax rayonunda uğurla davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 18 fevral 2013-cü il tarixli 2730 nömrəli sərəncamı ilə 26 min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən "Qazax-Quşçu Ayrım avtomobil yolunun tikintisi" başa çatdırılaraq istifadəyə verilmişdir. 5 km uzunluğunda Fərəhli avtomobil yoluna nəqliyyatın hərəkətini yaxşılaşdırmaq üçün dəmyə xırı daşınaraq yayılmışdır.

Bundan əlavə Dövlət Proqramına uyğun olaraq Qazax-Kosalar avtomobil yolunun tikinti işlərinə başlanılması nəzərdə tutulmuşdur.

Qazax şəhərində kənd təsərrüfatı idarəsinin yeni inzibati binasının tikintisinə başlanılmış və işlər davam etdirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2013-cü il tarixli 374s saylı sərəncamına uyğun olaraq 180 şagird yerlik Quşçu Ayrım kənd tam orta, hər biri 80 şagird yerlik Məzəm və Bala Cəfərli kəndlərində ibtidai məktəblərin tikintisi və Qarapapaq kənd ümumtəhsil orta məktəbində bərpa gücləndirmə işləri başa çatdırılaraq istifadəyə verilmişdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə Qazax şəhərində hər biri 100 yerlik olmaqla 2 ədəd körpələr evi-uşaq bağçalarının tikinti işlərinə başlanılmış, həmin obyektlərdə tikinti işləri yüksək keyfiyyətlə başa çatdırılaraq istifadəyə verilmişdir.

Qazax şəhərinin prospekt və küçələrində yeni işıqlandırma sistemlərinin quraşdırılması işləri görülmüş və bu istiqamətdə işlər indi də davam etdirilir.

Ağköynək kəndi ərazisində şəhərin məişət tullantılarının tökülməsi üçün 30 hektar ərazidə hamarlama və təmizləmə işləri aparılmış, tullantıların mərkəzləşmiş qaydada bir yerə tökülməsi üçün maşın-mexanizmlərinin köməyi ilə "Poliqon" yaradılmışdır. Aslanbəyli və Abbasbəyli kəndlərində əhalinin içməli suya olan tələbatını yaxşılaşdırmaq məqsədilə hər birinin tutumu 16 ton olan 5 ədəd su çənləri quraşdırılmış və 4 km uzunluğunda su xətləri çəkilərək əhalinin istifadəsinə verilmişdir.

Bundan əlavə Daş Salahlı kəndində tutumu 300 kub.m olan su anbarı əsaslı təmir edilmiş, 5 km uzunluğunda su xətti çəkilmiş, əhalinin ümumi istifadəsi üçün 23 ədəd bulaq quraşdırılmışdır. Aşağı Salahlı kəndində 2,5 km uzunluğunda su xətti çəkilərək əhalinin istifadəsinə verilmişdir.

Ötən müddət ərzində Dəmirçilər və Ürkməzli kəndlərinə içməli suyun çəkilişi, Dəmirçilər kəndində suvarma su arxının 900 metr hissəsinin beton üzlüyə alınması, diametri 800 mm olan metal boru ilə 250 metr uzunluğunda su arxının bərpa edilməsi işi başa çatdırılmış və 2 ədəd su nasosu quraşdırılmışdır.

Rayon ərazisində suvarma suyunun yaxşılaşdırılması məqsədilə 2014-cü ildə Çaylı, Kommuna, Kosalar, Ağköynək, Qarapapaq, Orta Salahlı, Qazaxbəyli, Aşağı Salahlı kəndlərinin ərazisində 24270 p/m arxlar beton üzlüyə alınmış, 55160 p/m torpaq məcralı arxlar təmizlənmiş, 423 ədəd hidrotexniki qurğular quraşdırılmışdır. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 374s saylı sərəncamına uyğun olaraq köhnə mərkəzi xəstəxananın yerində yeni 145 çarpaylıq Mərkəzi Xəstəxana Kompleksinin tikintisinə başlanılmışdır.

Ölkə Prezidentinin 20 iyun 2014-cü il tarixli Sərəncamına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə Qazax rayonunda Qarabağ Əlilləri və Şəhid ailələri üçün mərhələlərlə növbəlilik əsasında fərdi qaydada yaşayış evlərinin tikintisinə başlanılmışdır. Bundan əlavə ölkə prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramına uyğun olaraq Qazax rayonunun Qazaxbəyli kəndi ərazisində 304 məcburi köçkün ailəsinə bütün infrastrukturlarla birlikdə yeni yaşayış binalarının tikintisi üçün 10 hektar torpaq sahəsi ayrılmışdır. Hazırda layihə İnstitutu tərəfindən yeni salınacaq qəsəbənin layihə-smeta sənədi tam başa çatdırılmışdır. Yaxın vaxtlarda tikinti işlərinə başlanılacaqdır.

Qazax rayonu üzrə 2014-cü ilin yerli gəlir və xərclərinin proqnozu 21.143.000 manat məbləğində müəyyənləşdirilmişdir. Büdcənin mədaxil hissəsinin 5.490.000 manatını yerli daxilolmalar, 15.653.000 manatını isə mərkəzləşdirilmiş xərclərdən alınacaq dotasiya təşkil etmişdir. Mədaxil hissədə yerli daxilolmalar 26,0 faiz, dotasiya isə 74,0 faiz olmuşdur.

2014-cü ildə yerli daxilolmalar 5.490.000 manat proqnoza qarşı 5.625.390 manat və ya 102,5 faiz yerinə yetirilərək büdcəyə 135.390 manat çox vəsait mədaxil olmuşdur. 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə büdcəyə 495.168 manat və ya 9,6 faiz çox vəsait daxil olmuşdur. Mərkəzləşdirilmiş xərclərdən alınası dotasiya 93,6 faiz icra olunmuşdur. 2014-cü ildə yerli gəlirlər 96,6 faiz yerinə yetirilmiş, yerli xərclər 96,2 faiz və ya 975.387 manat az icra olunmuşdur. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 11.983.837 manat azdır. İcra zamanı ilk növbədə əməkhaqqı və ona bərabər tutulan zəruri xərclərin ödənilməsinə üstünlük verilmişdir.

Rayon ərazisində 7 ədəd özəl bank filialı, 1 ədəd özəl bank şöbələri, 1 ədəd kredit ittifaqı və 4 ədəd bank olmayan kredit təşkilatı fəaliyyət göstərir.

2014-cü il ərzində əhaliyə 52.503.713 manat kredit verilmişdir ki, bunun da 42.942.872 manatı qısamüddətli, 9.560.841 manatı isə uzunmüddətlidir. Bundan əlavə 9 nəfər rayon sakininə 233.340 manat "İpoteka" krediti verilmişdir. Əhalidən 1.656.950 manat və 261.900 ABŞ dolları əmanətlər cəlb olunmuşdur. Ötən il ərzində 146 sahibkarlıq subyektinə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 1.700.000 manat verilmiş kreditlər hesabına 2014-cü ildə 315 yeni iş yerləri açılmışdır. Kənd yerlərinin kreditləşməsi yolu ilə 10 nəfərə 45 min manat kredit verilmişdir. Hesabat ilində rayon üzrə əsas kapitala yönəldilən investisiyaların miqdarı 12.407.100 manat, ümumi məhsul buraxılışı 127.791.100 manat olmuşdur. Adambaşına düşən ümumi məhsulun həcmi 1.374 manat, orta aylıq əməkhaqqı 255 manat olmuşdur. Əhalinin pul gəlirlərinin artması hesabına rayonumuzun yaşayış məntəqələrində 188 fərdi yaşayış evləri tikilmişdir. 2014-cü ildə rayonumuzda olan 47.811 nəfər iqtisadi fəal əhalinin 46.960 nəferi iqtisadiyyatda məşğul olanlardır.

**(Ardı səh.2-də)**

# 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair Qazax rayonu İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərovun

# HESABAT MƏRUZƏSİ

(Əvvəli səh.1-də)



Azərbaycan Respublikası "Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq rayonda yeni iş yerlərinin açılması ardıcıl olaraq davam edir. Belə ki, 2003-cü ildən bu günədək rayon üzrə 10.739 yeni iş yeri, 2014-cü ildə rayonda 16 yeni müəssisə yaradılaraq 867-i daimi olmaqla 907 yeni iş yeri açılmışdır.

2014-cü il ərzində 101 dövlət və qeyri-dövlət müəssisələrindən 360 boş iş yeri təqdim edilmiş, 778 nəfər Qazax rayon Məşğulluq Mərkəzinə müraciət etmiş vətəndaşlardan 434 nəfər iş axtaran kimi qeydiyyata alınmış və 125 nəfər münasib işlə təmin olunmuşdur. Qazax rayon Məşğulluq Mərkəzi 2015-ci ildə rayonda fəaliyyət göstərən idarə, müəssisə, təşkilat rəhbərləri ilə daha sıx əlaqə yaratmalı və müraciət etmiş vətəndaşları vaxtında qeydiyyata almaqla işlə təmin olmalarına lazımi kömək göstərsinlər.

Son illərdə kənd təsərrüfatı məhsullarının istehsalının artırılması ilə əlaqədar qəbul edilmiş Sərəncam və Qərarların icrasının nəticəsidir ki, 2014-cü ildə biçilmiş 7.880 hektar sahədən 20.123 ton taxıl istehsal olunmuşdur ki, bu da əvvəlki ilə nisbətən 3.756 ton çoxdur. Orta hesabla hər hektardan məhsuldarlıq 25,6 sentnerə çatdırılmışdır. Bununla yanaşı meyvə istehsalı 627 ton artırılaraq 14.185 tona, üzüm istehsalı 35 ton artırılaraq 3.614 tona, kartof istehsalı isə 360 ton artırılaraq 3.560 tona çatdırılmışdır.

Ölkə Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli sərəncamına uyğun olaraq 2014-cü ilin iyun ayında 5.070 nəfər istehsalçının becərdiyi 13.553 hektar sahə üçün 542.120 manat yanacaq və motor yağına görə yardım hesablanaraq verilmişdir. Dekabr ayında 1.979 nəfər istehlakçının 3.883 hektar əkdiyi buğda sahəsi üçün 153.324 manat yardım hesablanaraq sənədlər Respublika Yardım Komissiyasına təqdim edilmişdir. İl ərzində istehsalçılara güzəştli qiymətlə 81 ton azot kübrəsi satılmışdır. Kənd təsərrüfatı məhsulları istehsalçılarının kənd təsərrüfatı texnikası ilə təminatına əlavə dəstək haqqında Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2013-cü il tarixli Sərəncamı ilə 2014-cü ildə rayona 2 ədəd yeni taxılyığan kombayn gətirilmişdir. Bu da taxıl məhsulunun qısa müddətdə itkisiz yığılmasına şərait yaradacaqdır. Mövcud şum traktorlarından və digər kənd təsərrüfatı texnikalarından səmərəli istifadə olunaraq kifayət qədər şum qaldırılmışdır. Bunun nəticəsidir ki, 2015-ci ilin məhsulu üçün 5.559 hektarda payızlıq taxıl səpilmişdir. Bunun 4.165 hektarı buğdadır.

2014-cü ilin yazında və payızında rayon ərazisində 295.500 ədəd müxtəlif növ ağaclar əkilmişdir, bunun da 50.000 ədədi magistral yol kənarlarına, şəhər və kənd daxilinə, 245.500 ədədi isə Meşə Mühafizəsi və Bərpası müəssisəsi tərəfindən əkilmişdir. Əkilmiş ağaclara aqrotexniki xidmət işləri davam etdirilir.

Kənd təsərrüfatı bitkilərindən yüksək məhsul alınması üçün əsas amillərdən biri bitkilərin vaxtında və kifayət qədər suvarma suyu ilə təmin olunmasıdır. Suvarma suyunda yaranmış çətinliklərin aradan qaldırılması məqsədilə 2014-cü ildə rayon ərazisində 18 ədəd subartezian quyusu qazılmış və 9 ədəd subartezian quyusunun qazılması sənədləşdirilmişdir.

Suvarma Sistemləri idarəsi tərəfindən 2014-cü vegetasiya ilində havaların çox quraq keçməsi və su mənbələrində kifayət qədər suvarma suyunun toplanmaması nəticəsində istehsalçılar suvarma suyu ilə tam təmin olunmamışlar.

Mövcud suvarma sularından itkisiz və daha səmərəli istifadə edilməsi məqsədilə Suvarma Sistemləri İdarəsinin rəhbərliyi işini daha səmərəli qurmalıdır. Yalnız ayrıclardan təsərrüfatlara 62.1 milyon m3 əvəzinə 44.4 milyon m3 su verilmişdir. Bununla artan yekunla 26.011 min hektar əkin sahəsi suvarılmışdır ki, bu da nəzərdə tutulandan çox azdır. Qazax Suvarma Sistemləri İdarəsi tərəfindən 2014-cü ildə 703 min m3 arxlarda lildən təmizlənmə işləri aparılmışdır. Bundan 299.000 kub metri Qazax Melioservis idarəsi tərəfindən aparılmışdır. Örtülü suvarma şəbəkələrində Dövlət Proqramına uyğun olaraq bərpa və yenidənqurma işləri davam etdirilir.

2014-cü ildə 668 baş iribuynuzlu heyvan süni yolla mayalandırılmış, əvvəlki ildə mayalandırılmış heyvanlardan 744 baş bala əldə edilmişdir. Kəndlərdə heyvandarlıq sahəsində bu işlərin genişləndirilməsi ləng gedir. Odur ki, aidiyyəti idarələr, rayon İcra Hakimiyyəti Başçısının inzibati ərazi dairəsi üzrə nümayəndələri və bələdiyyə sədrləri bu işin məsuliyyətini dərk edərək tam ciddiliyi ilə müvafiq tədbirlər keçirilməsini təmin etməlidirlər.

Heyvandarlıq sahəsində zoobaytar tədbirlərin planlı surətdə həyata keçirilməsinin nəticəsidir ki, məhsul istehsalı artmaqdadır. Belə ki, 2014-cü ildə ötən ilə nisbətən 1.330 ton artıq süd istehsal olunaraq 29.002 tona, 122 ton (diri çəkidə) artıq ət istehsal olunaraq 5.252 tona və 198.000 ədəd çox yumurta alınaraq 11 milyon 200 min ədədə, iribuynuzlu mal-qaranın baş sayı 7 baş artaraq 30.095 başa çatdırılmışdır.

Qazax Baytarlıq idarəsinin rəhbərliyi rayon ərazisində satılan ət və süd məhsullarının keyfiyyətinə və onların satıldığı obyektlərin sanitariya qaydalarına uyğun olmasına nəzarəti gücləndirməlidir.

Əhalinin Sosial Müdafiəsi Fondunun rayon şöbəsi tərəfindən əhalinin pensiya və müavinətlərinin ödənilməsi üçün 2014-cü ildə ödəniş müəssisələrinə 27.812.000 manat vəsait köçürülmüşdür. Bu keçən ilin müvafiq dövrünə nisbətən 2.041 manat çoxdur. 2014-cü ildə şöbədə sosial sığorta haqları üzrə yığım proqnozu 94,5 faiz yerinə yetirilmişdir. Toplanmış vəsait 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 516.000 manat artıq olmuşdur. Hazırda 14.001 nəfər pensiyaçılardan hamısı öz pensiyalarını plastik kartlarla bankomatlar vasitəsilə alırlar.

2014-cü ildə Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 4.557.528 manat aylıq müavinət və birdəfəlik müavinət təyin edilmiş və ödənilmişdir. Bu rəqəm 2013-cü illə müqayisədə 239.000 manat azdır.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 29 avqust 2013-cü il tarixli fərmanına əsasən 2013-cü ilin 01 sentyabr tarixindən müavinətlərin məbləği artırılmışdır. 2014-cü ildə 1.434 ailəyə 2.774.522 manat ünvanlı sosial yardım təyin edilib ödənilmişdir. Bununla yanaşı ÜSY-ın təyin olunmasında və vətəndaşların müraciətlərinə baxılmasında mövcud nöqsanlar hələ də tam aradan qaldırılmamışdır.

Hesabat ili ərzində əhaliyə göstərilən ticarət, nəqliyyat, rabitə və məişət xidməti sahələrində də bir sıra işlər görülmüşdür.

Qazax Telekommunikasiya Qovşağı cari ildə planı 101 faiz yerinə yetirmiş və ötən müddət ərzində 54 ədəd yeni telefon xətti çəkilərək vətəndaşların istifadəsinə verilmişdir. Lakin vətəndaşların çoxsaylı müraciətlərini nəzərə alaraq Telekommunikasiya qovşağının rəhbərliyi bu sahəyə diqqəti artırmalı və yuxarı təşkilatlar qarşısında məsələ qaldırmalıdır.

Qazax Poçt filialı 2014-cü il ərzində planı 113 % yerinə yetirərək əhalidən elektrik enerjisi, qaz, su, telefon, vergi və sair pulları qəbul edib aidiyyəti təşkilatların bank hesablarına köçürmüşdür. Filial tərəfindən müxtəlif ünvanlara 6.831 məktub və 728 ədəd bağlama göndərilmiş, 11.542 məktub və 2.355 bağlama qəbul edilmişdir.

Qazax-Avtovağzal ATSC tərəfindən 2014-cü ildə 306.000 sərnişinə xidmət göstərilərək plan 102,4 faiz yerinə yetirilmişdir. 2014-cü ildə rayonun kəndlərinə işləyən marşurut avtobusları Avtovağzala toplanaraq, oradan hərəkətə başladıqlarından mərkəzi bazarın qarşısında yaranan tıxaclar seyrəlmişdir.

27 saylı Yol İstismar İdarəsi 58 km respublika əhəmiyyətli, 134 km yerli əhəmiyyətli avtomobil yollarına və uzunluğu 914 p/m olan 23 ədəd körpülərə xidmət edir. 2014-cü ildə idarəyə "Azəryolservis" tərəfindən 1 ədəd TATRA markalı avtoekskavator verilmişdir.

Qazax Mənzil İstismar Sahəsinin balansında olan 7 yaşayış binasının dam örtüyündə əsaslı, 12 binanın dam örtüyündə və 21 binanın kanalizasiya sistemində cari təmir işləri aparılmışdır. 22 binanın 123 mənzilinin tüstü bacası və hava təmizləyici kanalı təmizlənərək sakinlərin istifadəsinə verilmişdir. 2014-cü il ərzində vətəndaşlardan yığılan mənzil xidmət haqqı 109,7 faiz olmuşdur.

Qazax Kommunal Müəssisələri Kombinatı əsasən şəhərin təmizliyi və yaşıllaşdırılması işi ilə məşğul olur. 2014-cü ildə kombinata 212.037 manat vəsait daxil olmuşdur. 2014-cü ildə Nazirlər Kabinetinin bölgüsünə əsasən müasir tələblərə cavab verən 80 ədəd diyircəklər üzərində olan tutumlar kombinata gətirilmişdir. Göstərilən diqqət və qayğının nəticəsi olaraq Kommunal Müəssisələr Kombinatı öz işlərini daha da yaxşılaşdırmalı və təmizlik işlərini gücləndirməlidir.

Hesabat ilində əhalinin elektrik enerjisi, qaz, içməli su ilə təminatının yaxşılaşdırılması sahəsində də məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Elektrik Şəbəkəsi tərəfindən 2014-cü il ərzində cəmi pul yığımı 4.416.000 manat yerinə yetirilmişdir. Ümumi yığım 96.1 faiz, o cümlədən yerli əhali üzrə 97.7 faiz olmuşdur. 2013 və 2014-cü illərin göstəricilərini müqayisə edərkən cəmi pul yığımında 49.100 manat, o cümlədən yerli əhali sektorunda 20.800 manat artım olmuşdur. Bununla belə bildiyiniz kimi, Dövlət Proqramında Qazax şəhərinin elektrik daşıyıcılarının SİP kabellə əvəz olunması nəzərdə tutulmasına baxmayaraq, hələ də bu işə başlanılmamışdır. Son vaxtlarda tez-tez qısamüddətli açılmalar baş verir. Bu da vətəndaşların haqlı narazılığına səbəb olur. Şəbəkənin rəhbərliyi mövcud problemin aradan qaldırılması istiqamətində fəaliyyətini gücləndirməlidir.

2014-cü il ərzində Qazax rayon Qaz İstismar Sahəsi tərəfindən əhali abonentlərə satılmış qazın yığım faizi 95,6 faiz olmuşdur. 3.197.163 manat vəsait toplanmışdır ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 482.593 manat çoxdur. Rayon üzrə qazlaşma 100 faiz başa çatdırılmışdır. Ümumillikdə 2014-cü ildə 219 nəfər yeni abonent təbii qazla təmin edilmişdir.

Qazax Su-Kanal idarəsi tərəfindən 2014-cü il ərzində 125 abonentə yeni su xətti çəkilmiş, 5.860 abonentə xidmət göstərilmiş və 440.119 manat vəsait toplanmışdır. Bu da satışın 100,4 faizini təşkil edir. 2013-cü illə müqayisədə 4.3 faiz çox vəsait toplanmışdır. Havaların quraqlıq keçməsi ilə bağlı Qazax şəhərində əhalinin içməli su ilə təminatında yaranmış problemin aradan qaldırılması məqsədilə mövcud su mənbəyində təmizlik işlərinin aparılması və artıq su itkisinə yol verilməməsi haqda Qazax Sukanal idarəsinin rəhbərliyi ciddi düşünməlidir.

Su Quyularının İstismarı İdarəsinin Qazax İstismar sahəsinin balansında 123 ədəd subartezian quyusu vardır. 12 ədəd subartezian quyusunda əsaslı, 111 ədəd subartezian quyusunda 149 dəfə cari təmir işləri aparılmışdır.

Qazax şəhərinin su təchizatının və kanalizasiya sisteminin yenidən qurulması məqsədi ilə torpaqayırma və layihə sənədləri hazırlanmış, yaxın vaxtlarda tikinti işlərinə başlanılması nəzərdə tutulur.

Rayon Təhsil şöbəsinin tabeliyində olan 34 tam orta, 6 ümumi orta, 7 ibtidai məktəbdə 11.329 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1.768 nəfər müəllim məşğul olmuşdur. 2014-cü ildə 877 nəfər XI sinif məzunlarından 519 nəfəri TQDK-ya sənət vermiş onlardan 291 nəfəri, əvvəlki illərin məzunlarından isə 29 nəfəri ali məktəblərə, 87 nəfəri isə orta ixtisas məktəblərinə daxil olmuşlar. Qəbul olmuş məzunlardan 44 nəfəri 500-dən, 15 nəfəri isə 600-dən yuxarı bal toplamışdır. Hüseyinbəyli kənd tam orta məktəbinin 1 nəfər məzunu qızıl medal almış və Azərbaycan Tibb Universitetinə qəbul olmuşdur. Məzunlardan 18 nəfəri respublikanın Ali Hərbi Akademiyasına və 9 nəfəri Naxçıvanski adına Hərbi liseyə daxil olmuşdur.

Azərbaycan Respubllikası Prezidenti Adminstrasiyasının tapşırığına uyğun olaraq müasir Azərbaycan tarixinin ümumtəhsil məktəblərində daha səmərəli öyrənilməsi məqsədilə Təhsil Nazirliyi tərəfindən tövsiyə edilmiş: 1. "Ulu Öndər Heydər Əliyev Müstəqil Azərbaycanın qurucusu və memarıdır", 2. "Ümummilli lider Heydər Əliyev ideyaları müasir Azərbaycanın sosial-iqtisadi inkişafının təminatçısıdır" mövzuları dərsdən kənar vaxtlarda Heydər Əliyev Mərkəzində ümumtəhsil məktəblərinin XI sinif şagirdlərinə tədris olunmuşdur. Tədrisin yüksək keyfiyyətlə aparılması üçün rayon Təhsil şöbəsinə müvafiq tapşırıqlar verilmiş və həmin tapşırıqlara uyğun olaraq bir sıra işlər görülmüşdür. Dərslərin yüksək səviyyədə tədrisini təmin etmək məqsədilə rayonun Təhsil şöbəsinin əməkdaşları və peşəkarlığı, elmi nəzəri və metodiki hazırlığı ilə fərqlənən nüfuzlu tarix müəllimləri tərtib olunmuş qrafik əsasında tədris etmişlər. Şagirdlərin məktəbə davamiyyətini öyrənmək məqsədilə vaxtaşırı reydlər keçirilir. Reydlər zamanı bəzi məktəblərdə yuxarı sinif şagirdlərinin dərsə davamiyyətində ciddi nöqsanlara yol verildiyi aşkar edilmişdir. Bununla əlaqədar Rayon Təhsil şöbəsi işində dönüş yaratmalıdır.

2012-ci ilin dekabr ayında Nazirlər Kabinetinin 374s saylı sərəncamı ilə yeni xəstəxana binasının tikintisinə rəy verilmiş, 2013-cü ilin iyun ayından etibarən yeni xəstəxana binasının tikintisinə başlanılmışdır. Yeni tikinti RMX-nın fəaliyyət göstərdiyi ərazidə aparıldığı üçün köhnə bina sökülmüş və bütün şöbələr şəhər ərazisində fəaliyyət göstərən digər səhiyyə müəssisələrində yerləşdirilmişdir.

2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin tapşırıq və tövsiyəsi əsasında rayon əhalisi kütləvi olaraq tibbi müayinələrə cəlb olunmuş, müayinələrdə rayon əhalisinin 70%-dən çoxu iştirak etmişdir. Həmçinin rayonda keçirilmiş qanvermə aksiyasında 250 nəfərdən qan tədarük olunaraq respublika və Gəncə qan bankına göndərilmişdir.

İcra Hakimiyyəti, Qeyri Hökumət Təşkilatı və Yapon səfirliyi arasında aparılan işgüzar söhbətlərin nəticəsi olaraq Daş Salahlı kəndində yeni həkim məntəqəsinin tikintisinə bu ilin fevral ayında başlanılması nəzərdə tutulmuşdur.

Rayon Mədəniyyət və Turizm şöbəsi tərəfindən 2014-cü ildə 53 mədəni-kütləvi tədbir, bayram konsertləri, şənliklər, yubileylər, sərgilər, əlamətdar günlər, müsabiqələr keçirilmişdir.

Heydər Əliyev mərkəzində aparılan təmir işlərindən sonra mərkəzin fəaliyyəti daha da genişlənmiş, yeni dərnəklər və kursların yaradılması, yetişməkdə olan gənc nəslin vətənpərvərlik və dövlətçilik ruhunda formalaşmasına böyük təsir göstərmişdir. Əhalinin bütün təbəqələri üçün ödənişsiz kompüter kursları təşkil edilmiş, insanların Heydər Əliyev Mərkəzinə marağını artırmaq üçün "Heydər Əliyev Məktəbi", "Toxuculuq" kursları, "Dekorativ əl işləri, "Astronomiya dərsləri" və s. kurslar açılmışdır.

Şöbə tərəfindən mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və iş şəraitinin yaxşılaşdırılması məqsədi ilə lazım olan inventar və avadanlıqlar alınaraq təşkilatlara paylanılmışdır.

Dövlət Rəsm Qalereyasında istilik sistemi qurulmuş, Qazax şəhər 2 saylı, Ağköynək, Dəmirçilər, Ürkməzli, Çaylı, Kommuna, Orta Salahlı, Birinci Şıxlı, İkinci Şıxlı, Kəmərli kənd mədəniyyət evlərinin oturacaq yerlərinin sayı artırılaraq 200-ə çatdırılmışdır. Qazax rayonu ərazisində dövlət mühafizəsinə götürülmüş abidələrin 2001-ci ildə təsdiq olunmuş siyahısında 112 daşınmaz tarix və mədəniyyət abidələri vardır. Bunlardan 45-i memarlıq, 54-ü arxeoloji, 7-si monumental və xatirə, 5-i isə dekorativ tətbiqi sənəd nümunələridir.

Qazax rayon Gənclər və İdman İdarəsi tərəfindən Azərbaycan Respublikası Prezidentinin "Dövlət Gənclər siyasəti haqqında" Qanununun və "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının icrası ilə əlaqədar 2014-cü ildə gənclərlə iş sahəsi üzrə 15, bədən tərbiyəsi və idman sahəsi üzrə 32 tədbir keçirilmişdir. Keçirilən tədbirlərdə gənclərin bütün təbəqələri təmsil olunmaqla 5.372 nəfər yeniyetmə və gənc iştirak etmişdir. 2014-cü il ərzində beynəlxalq yarışlarda idmançılarımız 25, Respublika yarışlarında isə 63 dəfə mükafata layiq yerlər tutmuşlar. İdmançılarımızdan Qismət Vəkilov, Əfqan Xaşalov, İsrafil Məmmədov, Kübra Babayeva, Tapdıq Pənahzadə, Nizami Qasımov, Mahir Əmiraslanov və Nemət Vəkilov daha yaxşı nəticələr göstərmişlər.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə veteran idmançı Həsənov Rafiq Binnət oğlu Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü adına layiq görülmüş, Gənclər və İdman Nazirliyinin əmri ilə Azər Əliyev, İsrail Pəlilov və Fazil İsmayılov Azərbaycan Respublikasının əməkdar məşqçisi adına layiq görülmüşlər.

Rayonda 7 siyasi partiya, 23 ictimai birlik və 4 dini icma fəaliyyət göstərir. Yeni Azərbaycan Partiyasının 7.166 nəfər, digər partiyaların isə cəmi 390 nəfər üzvü vardır. Fəaliyyət göstərən ictimai-siyasi birliklər, dini icmalar, KİV-lər haqqında məlumat bazasının təkmilləşdirilməsi, toplanmış materialların təhlili istiqamətindəxeyli işlər görülmüşdür.

Hesabat ilində "Göyəzən" rayon qəzeti redaksiyası tərəfindən görülmüş işlərin vəziyyəti qənaətbəxş olmuşdur.

2014-cü ildə gənclərin ordu sıralarına çağırışı və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı ilə əlaqədar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müvafiq sərəncamlarına əsasən 2014-cü il ərzində hərbi hissələrə təyin edilmiş çağırışçıların təyin olunduqları hərbi hissələrə vaxtında göndərilməsi təmin edilmişdir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Yardım Fonduna vəsaitlərin toplanması ilə bağlı aparılmış məqsədyönlü işlərin nəticəsidir ki, 2014-cü ilin son aylarında Qazax rayon İcra Hakimiyyəti, şəhər və kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklər, bələdiyyələr və sahibkarlar tərəfindən hər ay 2000 manatdan çox vəsait köçürülür, bu da 2013-cü ilin aylıq ödənişindən 3 dəfəyə yaxın artıqdır.

Əvvəlki illərdə olduğu kimi 2014-cü ildə də yerli İcra Hakimiyyəti orqanlarının hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyəti təmin edilmişdir. Hesabat ilində rayonda mövcud olan kriminogen vəziyyətin təhlili və qanun pozuntularına qarşı aparılan mübarizə tədbirlərinə dair rayonun hüquq-mühafizə orqanları tərəfindən görülmüş işlər qanunun aliliyini, insan hüquqları və azadlıqlarının etibarlı müdafiəsini, cinayətkarlığa qarşı barışmaz mübarizəni təmin etmək zəruri tədbirlərdən biri kimi hesab edilir. Qazax rayonu ərazisində 2014-cü ildə 147 cinayət hadisəsi baş vermişdir. Qeydə alınmış cinayətlərin 92,1 faizinin açılması təmin olunmuş, 7 cinayət işi bağlı qalmışdır. 2014-cü ildə istintaq və məhkəmə orqanlarından yayınan 21 nəfər şəxs axtarışda olmuş, keçirilmiş tədbirlər nəticəsində onlardan 15-i tutularaq aidiyyəti orqanlara təhvil verilmişdir. Hesabat dövrü ərzində 11 narkotik faktı həyata keçirilmiş tədbirlər nəticəsində aşkar edilmiş, 427,244 qram narkotik vasitə dövriyyədən çıxarılmışdır. 2014-cü ildə ANAMA təşkilatı tərəfindən 48 ədəd müxtəlif növ hərbi sursat zərərsizləşdirilmişdir.

Şəhərin və rayonun kəndlərinin sosial-iqtisadi inkişafında, abadlıq-quruculuq işlərində və yerli əhəmiyyətli məsələlərin həllində bələdiyyələrin və yerli İcra Hakimiyyəti orqanlarının Əlaqələndirmə Şurasının fəaliyyətində müsbət dönüş yaradılmışdır. Bələdiyyə torpaqlarından və onların mülkiyyətində olan əmlaklardan qanunvericiliyə uyğun olaraq istifadə olunmasına müntəzəm nəzarət olunur. Bu barədə müvafiq məlumatlar müəyyən edilmiş qrafikə uyğun olaraq RİAİS-ə ötürülür. Qazax rayonunun ümumi istifadəsində olan 69.229 hektar torpaq sahəsinin 15.402 hektar dövlət mülkiyyətində saxlanılmış, 29.353 hektarı bələdiyyə mülkiyyitində, qalan 24.474 hektarı isə xüsusi mülkiyyətə verilmişdir.

2013-cü illə müqayisədə 2014-cü ildə Qazax rayon İcra Hakimiyyətinə daxil olmuş ərizə və şikayətlərin sayı 180 ədəd azalmış, RİH-nə 805 ərizə, şikayət və təklif daxil olmuşdur. Daxil olmuş müraciətlərdən 262-si Prezidentin Administrasiyasına, 29-u Milli Məclisə, 23-ü Nazirlər Kabinetinə, 68-i respublikanın digər təşkilatlarına, 423-ü isə bilavasitə İcra Hakimiyyətinə ünvanlanan müraciətlərdir. Aparılmış təhlil göstərir ki, müraciətlərin 47,5 faizi mərkəzi orqanlardan, 52,5 faizi isə vətəndaşlar tərəfindən daxil olmuşdur.

Müraciətlərdən 243-ü mənzil, 117-si əmək və əhalinin sosial müdafiəsi, 99-u sahibkarlıq, 45-i kənd təsərrüfatı, 39-u ailə və məişət, 30-u su və kanalizasiya, 21-i nəqliyyat, 15-i səhiyyə, 14-ü enerji və istilik təchizatı, 11-i hüquq, 10-u təhsil, 4-ü bələdiyyələrin fəaliyyəti, 157-si isə digər məsələlər ilə bağlı olmuşdur. Müraciətlərin 21,8 faizi müsbət həll olunmuş, 76,1 faizinə müvafiq izahat verilmiş, 2,0 faizi əsassız sayılmış, 0,1 faizi isə aidiyyəti üzrə göndərilmişdir. Vətəndaşların qaldırdıqları problemlərin operativ həlli üçün Rayon İcra Hakimiyyətində 24 saat fəaliyyət göstərən "Qaynar xətt" təşkil edilmişdir. RİHB yanında şuranın 31 şura iclası keçirilmiş, 32 məsələ müzakirə olunmuşdur.

Bildiyiniz kimi, 23 dekabr 2014-cü il tarixdə ölkəmizdə bələdiyyə seçkiləri keçirilmişdir. Bütün seçki məntəqələrində seçkilər Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının müvafiq təlimatlarına uyğun olaraq həyata keçirilmişdir. Seçkilərdə öz təşəbbüsü ilə, ayrı-ayrı siyasi partiyaları təmsil edən, eləcə də namizədin təyinatı əsasında 456 nəfər müşahidəçi səsvermə prosesini müşahidə etmişlər. 17 bələdiyyə üzrə 480 nəfərin namizədliyi qeydə alınmış 165 nəfər seçilmişdir ki, bunların hamısı ali təhsilli olmaqla 111 nəfəri YAP-ın, 45 nəfəri bitərəf və 9 nəfəri digər partiyaları təmsil edir. 10 seçki məntəqəsində VEB kamera, eyni zamanda 16 seçki məntəqəsində pandus keçidləri quraşdırılmışdır. Səsvermənin hazırlanması və keçirilməsi prosesi yüksək səviyyədə təşkil olunmuş və heç bir qanun pozuntusuna yol verilməmişdir. Rayonda olan 45 seçki məntəqəsində 54.386 seçicidən 21.797 nəfəri (40,07 %) iştirak etmişdir.

2014-cü ildə təsdiq edilmiş qrafik üzrə rayon İcra Hakimiyyəti başçısının qəbulunda 528 nəfər və 48 səyyar görüşlər zamanı keçirilən qəbullarda 26.034 nəfər rayon sakini iştirak etmişdir. Qəbullar rayonun aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin, rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələrinin və bələdiyyə sədrlərinin iştirakı ilə təşkil olunur. Rayon mərkəzində və kəndlərdə keçirilən səyyar qəbullarda 528 nəfər müraciət etmiş, 376 təklif irəli sürülmüş, 204 məsələ həllini tapıb, 146 nəfərin müraciəti əsasında aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılmış, 26 nəfərin müraciəti əsasında isə müvafiq işlər aparılır.

2014-cü ilin yanvar ayından başlayaraq rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəliklərində hesabat seçki yığıncaqları keçirilmişdir. Hesabatlar şəhər və kənd sakinlərinin yüksək fəallığı ilə keçirilmiş, yığıncaqlarda söylənilmiş təkliflər ümumiləşdirilərək rayon İcra Hakimiyyətinin müvafiq şöbəsinə təqdim olunmuşdur. Təkliflər əsasən yeni uşaq bağçaları və körpələr evinin, həkim məntəqələrinin tikilməsi, kəndarası yolların təmir edilməsi, içməli və suvarma suyu ilə təmin olunmaları, Kür çayı sahili boyunca sahilbərkitmə işlərinin davam etdirilməsi, məcburi köçkünlərin və imtiyazlı ailələrin yaşayış şəraitinin yaxşılaşdırılması üçün yeni yaşayış binalarının tikilməsi və kəndlərdə yeni artezian quyularının qazılmasına dair olmuşdur.

Hesabat ili ərzində rayon İcra Hakimiyyəti başçısı tərəfindən həvalə olunmuş vəzifəni lazımı şəkildə yerinə yetirmədiklərinə görə 2 nəfərə töhmət verilmişdir.

Hesabat ilində rayon İcra Hakimiyyəti başçısı aparatında və inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində dövlət idarəçiliyinin müasir stil və metodlarından istifadə olunmuş, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə və "Dövlət Qulluğu Haqqında" Qanununa uyğun olaraq işlər yerinə yetirilmişdir.

2015-ci ildə qarşımızda bir çox vəzifələr durur. Belə ki, rayonun sosisal-iqtisadi inkişafı sahəsində müxtəlif tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- Üçüncü Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasının təmin edilməsi;
- Kosalar avtomobil yolunun asfaltlaşması;
- Rayonda yeni tikintisinə, təmir və bərpa-gücləndirmə işlərinə ehtiyacı olan məktəblərin tikintisi və təmiri;
- Yeni körpələr evi-uşaq bağçasının tikintisi;
- Qəzalı vəziyyətdə olan çoxmənzilli kommunal yaşayış binalarının sakinləri üçün yeni yaşayış binalarının tikintisi;
- Məcburi köçkün və imtiyazlı ailələr üçün yeni yaşayış binalarının tikintisi;
- Beynəlxalq avtomobil yolunun hər iki tərəfində, eləcə də şəhərin küçələri boyunca geniş abadlıq işlərinin aparılmasının sürətləndirilməsi;
- Magistral avtomobil yollarının kənarında və rayonun digər ərazilərində ağac əkilməsi işlərinin davam etdirilməsi;
- Qazax şəhərində su və kanalizasiya sistemlərinin yenidən qurulması üçün tikinti işlərinə başlanılması;
- Qazax şəhərində elektrik verilişi xətlərinin SİP kabellə dəyişdirilməsi;
- Yeni artezian quyularının qazılması və sairə;

Yekunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarını əmin etmək istəyirik ki, 2015-cü ildə qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün bütün qüvvəmizi səfərbər edərək daha uğurlu nəticələr əldə edəcəyik və Dövlət Başçısının Qazax rayonuna göstərdiyi diqqət və qayğıya əməli işimizlə cavab verəcəyik.

# GENERAL ƏLAĞA ŞIXLİNSKİNİN 150 İLLİK YUBİLEYİ RAYONUMUZDA BÖYÜK TƏNTƏNƏ İLƏ QEYD EDİLMİŞDİR

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev general, görkəmli hərbi xadim Əlağa Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi haqqında 20 noyabr 2014-cü il tarixli sərəncam imzalamışdır. Bu sərəncamın qəbul edilməsi ölkə prezidenti İlham Əliyevin xalqımızın tarixi keçmişinə, o cümlədən hərb tarixinə göstərdiyi diqqət və qayğının əyani təzahürüdür. Eyni zamanda gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyyə olunmasında müstəsna əhəmiyyətə malikdir.**

Ə.Şıxlinskinin 150 illik yubileyinin keçirilməsinə dair hazırlanmış tədbirlər planına uyğun olaraq Olimpiya İdman Kompleksində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə teatrlaşdırılmış kütləvi tamaşa-mərasim keçirilmişdir.

Yubileylə bağlı şəhər başdan-başa bayramsayağı bəzədilmiş, müxtəlif yerlərdə görkəmli sərkərdənin portretləri asılmışdır. Əvvəlcə ümummilli lider Heydər Əliyevin əziz xatirəsi anılmış və ulu öndərin abidəsi önünə gül-çiçək dəstələri qoyulmuşdur.

Sonra tədbir iştirakçıları Fəxri qazaxlılar parkına gəlmişlər. Burada Qazaxda doğulub boya-başa çatmış şair və yazıçıların, elm və hərb xadimlərinin büstləri ziyarət olunmuş, gül dəstələri qoyulmuşdur.



Sonra kompleksdə tədbir öz işinə başlamışdır. "Heyratı" marşının sədaları altında mərkəzə doğru hərəkət edən bayraqdarlar tamaşa üçün meydan yaratmışlar. Aparıcılar polkovnik, əməkdar incəsənət xadimi Abdulla Qurbani və Məleykə xanım tədbiri açıq elan edərək qonaqları, müharibə veteranlarını, igid əsgər və zabitlərimizi, Qazax elinin vətənpərvər oğullarını və qızlarını, ana və bacıları salamlamış, onları Qazaxda keçirilən vətənpərvərlik bayramı münasibətilə təbrik etmişlər. Doğma Azərbaycanımızın tarixinə neçə-neçə elm, mədəniyyət, ədəbiyyat və incəsənət xadimi bəxş etmiş, gündən-günə gözəlləşən, yeniləşən Qazax torpağına, onun insanlarına həsr olunmuş şeirlər söyləmişlər. Bildirmişlər ki, bu gün ilk hərbi topoqraf, general İbrahim ağa Vəkilovun, ilk hərbi təyyarəçi Fərrux ağa Qayıbovun, divizya komandiri, general İbrahim ağa Usubovun, general Cavad bəy Şıxlinskinin, Osman ağa Gülməmmədovun, Sayad Zeynalovun, ilk azərbaycanlı hərbi şəfqət bacısı Nigar xanım Qayıbovanın, AXC-nin Parlament üzvləri Məmmədrza ağa, Mustafa bəy, Rəhim bəy və Faris bəy Vəkilovların, İtalyanın Milli Qəhrəmanı Tahir İsayevin, Sovet İttifaqı Qəhrəmanı Müseyib Allahverdiyevin, Milli Qəhrəmanlar-Şamoy Çobanovun, Alı Mustafayevin, Aqil Musayevin, Firudin Şamoyevin və Mərifət Nəsibovun da ruhları şaddır. Bu gün Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Səməd Vurğun, Mehdi Hüseyn, Osman Sarıvəlli, İsmayıl Şıxlı, Mirvarid Dilbazi və neçə-neçə qazaxlı korifey sənətkarların da ruhları burdadır.



Sonra Ə.Şıxlinskinin həyatı və hərbi fəaliyyəti ilə bağlı görkəmli dövlət və hərbi xadimlərin fikirləri səsləndirilmişdir. Hərb elmləri doktoru, professor, dövlət mükafatı laureatı, general Yevgeni Barsukov illər öncə yazmışdır: "General Ə.Şıxlinski içərisindən çıxmış olduğu Azərbaycan xalqına bütün varlığı ilə sadiq olub, onu sonsuz dərəcədə sevib. Əlağanın aldığı hərbi tərbiyə, təhsil, orduda xidməti, şanlı döyüş fəaliyyəti və keçdiyi yol elə bir həyat nümunəsidir ki, öz vətəninin şərəf və namusunu, azadlıq və istiqlaliyyətini qorumaq kimi bir vəzifəyə layiq olmaq istəyən hər bir kəs ondan nümunə götürməlidir". Görkəmli yazıçı Aleksandr Stepanov yazır ki, Əlağada general təkəbbüründən əsər-əlamət yox idi. General Əlağa Şıxlinskinin hünərvərliyi dillərdə dastan olmuşdur. Akademik Heydər Hüseynovun dedikləri: "Əlağa Şıxlinski dünyada şöhrət qazanmış topçuluq elmi sahəsindəki nəşrləri və fəaliyyəti ilə yanaşı, dil və ədəbiyyat məsələləri ilə də məşğul olurdu. O, təvəzökar və səmimi insan, ağıllı və ibrətli bir şəxs idi".

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov çıxış edərək bildirmişdir ki, rayonumuz bu gün əlamətdar və tarixi günlərindən birini yaşayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görkəmli hərb xadimi, tanınmış hərbiçi alim general Ə.Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi haqqında sərəncamına əsasən bu gün rayonumuzda yubiley tədbirlərinə start verilir. Bu münasibətlə Qazax rayonunun bütün ictimaiyyəti adından sizi, general Şıxlinskini dünyaya bəxş edən, qədim, eyni zamanda, gündən-günə yeniləşən bu gözəl diyarda ürəkdən salamlayır, dəvətimizi qəbul edərək bu möhtəşəm tədbirdə bizimlə bir yerdə olduğunuz üçün hər birinizə dərin minnətdarlığımı bildirir və xoş gəlmisiniz deyirəm. Qazax mahalı elm, mədəniyyət, ədəbiyyat, incəsənət, eləcə də görkəmli hərb xadimləri ilə həmişə fəxr etmişdir. Biz bu gün onlardan yalnız birinin-general Əlağa Şıxlinskinin işığına toplaşmışıq.

Möhtərəm Prezidintimizin 20 noyabr 2014-cü il tarixli sərəncamında qeyd edilir ki, XX əsrin əvvəllərindən etibarən irimiqyaslı hərbi əməliyyatların iştirakçısı kimi general Əlağa Şıxlinski döyüş meydanlarındakı şücaətləri və artilleriya nəzəriyyəsinə gətirdiyi yenilikləri ilə hərb tarixinə parlaq səhifələr yazmışdır. O, Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlət təsisatları yaradılarkən milli qoşun hissələrinin təşkilində, müstəqil ordu quruculuğunda müstəsna fəaliyyət göstərmiş, sonrakı dövrlərdə də hərbi andına sadiq qalaraq ölkənin Silahlı Qüvvələrinin formalaşdırılmasına töhfələr vermişdir.



Xalqımızın ümummilli lideri Heydər Əliyev bütün fəaliyyəti boyu Azərbaycan tarixinə hörmət və ehtiramla yanaşmış, görkəmli sərkərdələrimizin xatirələrinin əbədiləşdirilməsi, onların yubileylərinin keçirilməsi ilə bağlı zamanında neçə-neçə sərəncam vermişdir.

Məhz möhtərəm Prezidentimizin bu məlum sərəncamı da bütün xalqımız kimi, bizim Qazax rayonunun əhalisi tərəfindən də Heydər Əliyev ənənələrinin uğurlu davamı kimi qəbul edildi. Mən təntənəli yubiley mərasimində bir daha bütün qazaxlılar adından möhtərəm Prezidentimiz İlham Əliyevə general Əlağa Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi haqqında tarixi sərəncamına görə dərin minnətdarlığımı, hörmət və ehtiramımı bildirirəm.



Qazaxlılar Azərbaycan dövlətinə, Azərbaycan xalqına, ümummilli liderimiz Heydər Əliyevin ideyalarına həmişə sadiq olmuş və bu gün də sadiqdirlər. Ölkə rəhbərliyinin apardığı daxili və xarici siyasəti ürəkdən bəyənir və dəstəkləyirlər. Müstəqil Azərbaycan Respublikasının sürətli dinamik inkişafı, dünyada tanınması, iqtisadi, siyasi, mədəni sahədə qazanılmış uğurlar, ölkəmizin regionda söz sahibi olması və xüsusilə ordu quruculuğundakı müvəffəqiyyətlər bizi də sevindirir və Azərbaycan naminə fəaliyyətimizdə yeni stimul yaradır. Biz yaxşı bilirik ki, Azərbaycan neçə ildir müharibə şəraitində yaşayır. Hələ də sərhədlərimizdə atəş səsləri eşidilir. Hər gün Ermənistan Silahlı Qüvvələri tərəfindən atəşkəs rejimi bir neçə dəfə pozulur, mövqelərimiz atəşə tutulur, şəhidlər veririk.

Lakin buna baxmayaraq igid və mətin Azərbaycan əsgərinin sayəsində düşmən susdurulur, təxribat-diversiya qruplarının qarşısı vaxtında və layiqincə alınır. Fəxr edirik ki, bizim yenilməz, müdrik, tədbirli Ali Baş Komandanımız, mübarız döyüşçülərimiz və ordumuza həmişə arxa-dayaq olan xalqımız vardır. Ordu ilə xalqın birliyi möhkəmdir, sarsılmazdır. Ötən ilin avqust ayı hamınızın xatirindədir. Azərbaycan ordusu bir daha nəyə qadir olduğunu düşmənə göstərdi. Sübut etdi ki, o hər bir hücumun qarşısını almağa hər an hazır və qadirdir. Həmin günlərdə Ali Baş Komandanın ön səngərə getməsi, təmas xəttində döyüşçülərlə görüşü, fərqlənən bir qrup hərbi qulluqçunu şəxsən mükafatlandırması nəinki Azərbaycan əsgərinin, eləcə də hər bir azərbaycanlının da böyük ruh yüksəkliyinə səbəb olmuşdur. Bu gün gənclərin orduya hazırlanması, vətənpərvərlik tərbiyəsi ölkə rəhbərliyinin fəaliyyətində prioritetdir. Məhz bugünkü möhtəşəm tədbir də xüsusilə gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsi, ata-babalarımızın qəhrəmanlıq ənənələri əsasınada onlarda vətənə sədaqət hisslərinin aşılanması məqsədini daşıyır. Güclü dövlətin güclü ordusu olmalıdır. Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır. Biz hər birimiz bundan qürur duyur və Azərbaycan Ordusu ilə fəxr edirik. Möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, Azərbaycan ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri vətənə ləyaqətlə xidmət edirlər, öz vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə xüsusilə də ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir.



Müdafiə Nazirinin müavini general leytenant Kərim Vəliyev çıxış edərək Vətən haqqında, hərbi vətənpərvərlik ruhunda fikirlər söylənilmiş və şeirlər səsləndirilmişdir. Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblı "Bayram suitası" rəqsini ifa etmişdir. "Çırpınırdı Qara dəniz" mahnısı səsləndirilən zaman Türkiyə və Azərbaycan bayraqları arenya gətirilmişdir. Molla Pənah Vaqiflə Vidadinin səhnədə görünməsi alqışlara səbəb olmuşdur. Vaqif özünün məşhur "Durnalar" şeirini oxumuşdur.



keçirilən tədbirin əhəmiyyətindən, Azərbaycan Silahlı Qüvvələrinin şücaətindən danışmışdır.

Sonra General Ə.Şıxlinskinin vaxtı ilə komandanlıq etdiyi Azərbaycan Əlahiddə Korpusunun şəxsi heyəti döyüş bayrağı altında yubiley mərasiminə gəlmişdir. Onlar "Azəri Türklər" marşını ifa edərək arenaya daxil olmuşlar. Qazax mahalında 150 il öncə anadan olmuş görkəmli hərbi xadim, general Əlağa İsmayılağa oğlu Şıxlinski alqış sədaları altında mərasimə gəlmişdir. Bu zaman yubliyarı qarşılamaq üçün Azərbaycan Əlahiddə Korpusunun varisi, müasir Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qoşun növlərinin nümayəndələri də mərasimə gəlmişlər. Mərasim iştirakçıları quruda, havada və dənizdə Vətənimizin keşiyində ayıq-sayıq dayanan Vətən əsgərlərini qarşılamışlar. "Azərbaycan Əsgəri" marşının sədaları və müxtəlif qoşun növlərinin döyüş bayraqları altında hərbi qulluqçular, topçular, kursantlar səhnəyə daxil olmuşlar. Sonra hərbi orkestirin müşayiəti ilə Dövlət Himni ifa edilmişdir. Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblı Sevinc Sarıyevanın ifasında "Xoş gəldin" mahnısının müşayiəti ilə xoreoqrafiq kompozisya təqdim etmişdir.

Sonra mərasimdə Azərbaycan xalqını erməni daşnaklarından xilas etmək missiyası ilə Gəncəyə gəlmiş Nuru Paşa ilə Ə.Şıxlinskinin dostluğundan danışılmış və ibrətamiz xatirələr yada salınmışdır.

Axırda teatrlaşdırılmış kütləvi mərasimdə Ə.Şıxlinski ilə həyat yoldaşı, ilk hərbi şəfqət bacısı Nigar xanımın tanış olmaları, bir-birini sevmələri, ailə həyatı qurmaları, Nigar xanımın Əlağanın xidmət yerinə-Peterburqa getməsi göstərilmişdir.

Muğam cütlüyünün ifasında Ə.Şıxlinskinin şeiri təqdim olunmuşdur.

Tədbirdə akademik Teymur Bünyadov, millət vəkili Əhməd Vəliyev, Xanhüseyn Kazımlı, kinorejissor, əməkdar incəsənət xadimi Ziya Şıxlinski çıxış etmişlər.

Teatrlaşdırılmış kütləvi tamaşa alqış sədaları altında başa çatmışdır.

**Elçin İSMAYIL**







# YAP Qazax rayon təşkilatının hesabat yığıncağı keçirilmişdir

**YAP Qazax rayon təşkilatının 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir. Tədbir iştirakçıları Heydər Əliyevin büstü önünə gül dəstələri qoymuş, ulu öndərin xatirəsini dərin hörmətlə yad etmişlər.**

Akt zalında keçirilən yığıncaqda YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov 2014-cü ildə görülmüş işlərə dair məruzə ilə çıxış edərək bildirmişdir ki, rayon təşkilatı 2014-cü ildə işlərini YAP-ın nizamnaməsi və proqramı əsasında, İcra Katibliyinin təlimat və tövsiyələrinə uyğun qurmuşdur. 2014-cü ildə keçirilmiş bələdiyyə seçkilərində fəal iştirak etmişik. Belə ki, 17 bələdiyyəyə seçiləcək 165 nəfər bələdiyyə üzvü yerinə 165 nəfər YAP üzvünün namizədlikləri YAP tərəfindən irəli sürülmüşdür. Seçkilər dövründə heç bir qanun pozuntusuna yol verilməmiş, nəticədə rayonumuzda seçkilər demokratik, ədalətli və şəffaf keçirilmişdir. YAP tərəfindən irəli sürülən namizədlərdən 111 nəfəri seçicilərin etimadını qazanaraq bələdiyyələrə üzv seçilmişlər. Seçilmiş bələdiyyə üzvlərindən 47 nəfər, yəni 29 % gənclər, 44 nəfər, yəni 27 % qadın olmuşdur.

Ümumxalq partiyasına çevrilmiş YAP-ın bu gün 640 min nəfərdən çox üzvü vardır. Bundan 7166 nəfəri YAP Qazax rayon təşkilatının 75 ərazi ilk partiya təşkilatlarında qeydiyyatdadırlar. Onlardan 4380 nəfərini qadınlar, 2193 nəfərini gənclər təşkil edir. 2014-cü il ərzində YAP Qazax rayon təşkilatında 868 nəfər partiya sıralarına qəbul olunmuş, bundan 660 nəfəri qadınlar, 241 nəfəri gənclərdir. 2014-cü ilin yayında 4 nəfər fəal gəncimiz YAP-ın təşkil etdiyi gənclərin yay məktəbinə istirahət etmək üçün göndərilmişdir.

Qeyd etmişdir ki, qarşıdan 2015-ci ildə Milli Məclisə seçkilər gəlir. Əvvəlki seçkilərdə olduğu kimi YAP Qazax rayon təşkilatı növbəti seçkidə də YAP-ın qələbə çalması və partiya siyasətinin həyata keçirilməsi üçün bütün imkanlardan istifadə ediləcəkdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur. YAP Gənclər Birliyi Qazax rayon təşkilatının sədri Vüsal İsmayılov, YAP Qazax rayon təşkilatı Qadınlar Şurasının sədri Asya Alhüseynova, YAP Qazax rayon təşkilatının şura üzvü Abbas Göyüşov, YAP Qazax rayon təşkilatı AMİ Qazax filialı ərazi ilk partiya təşkilatının sədr müavini Məmməd Yusifov çıxış edərək 2014-cü ildə görülən işlərdən danışmışlar




Qazax rayon İcra Hakimiyyətinin Başçısı, YAP Qazax rayon təşkilatı İdarə Heyətinin üzvü Ayaz Əsgərov tədbirdə çıxış edərək qeyd etmişdir ki, 2014-cü ilin yekunları ölkəmiz üçün kifayət qədər uğurlu olub. İl ərzində ölkə iqtisadiyyatı artıb, qeyri-neft sektorunun inkişafı sürətlənib. Uğurlu sosial siyasət həyata keçirilib. "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" uğurla davam edib. Qazanılan bütün uğurların əsasında ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasət dayanır. Bütün görülən işlərdə ölkəmizin ən güclü siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının da xüsusi rolu vardır.

Hesabat ilində rayonumuzda da sosial-iqtisadi inkişafa nail olunmuşdur. Yeni iş yerlərinin açılması, sosial obyektlərin tikintisi istiqamətində bir çox işlər görülmüş, "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq tikinti, quruculuq və abadlıq işləri uğurla davam etdirilmişdir. Prezident İlham Əliyevin sərəncamı ilə 2015-ci il "Kənd təsərrüfatı ili" elan edilmişdir. Qazax kənd təsərrüfatı rayonu olduğu üçün bu sahədə biz daha böyük uğurlar qazanacağıq. Eyni zamanda şəhərdə və kəndlərdə abadlıq-quruculuq və yaşıllaşdırma işləri davam etdiriləcəkdir.

Qeyd etmişdir ki, 23 dekabr 2014-cü il tarixdə keçirilən bələdiyyə seçkiləri tam demokratik və şəffaf bir seçki kimi yadda qalmışdır. YAP Qazax rayon təşkilatının bütün üzvləri bələdiyyə seçkilərində yüksək fəallıq nümayiş etdirmişlər. A.Əsgərov bu il keçiriləcək parlament seçkilərində də rayon təşkilatı üzvlərinin fəal iştirak edəcəyinə əmin olduğunu bildirmişdir.

Hesabat yığıncağında YAP Qazax rayon təşkilatının fəaliyyəti müsbət qiymətləndirilmişdir.

**Elçin İSMAYIL**

## 2015-ci il üçün Qazax rayon İcra Hakimiyyəti başçısının aparatında vətəndaşların qəbulu cədvəli

| S/№-si | Qəbul edən şəxs | Tutduğu vəzifə | Qəbul günləri | Qəbul vaxtı |
|---|---|---|---|---|
| 1. | Əsgərov Ayaz Nəriman oğlu | rayon İcra Hakimiyyətinin başçısı | Hər həftənin V günü | $10^{00}$-dan |
| 2. | Nağdalıyev Fərman Məmməd oğlu | rayon İcra Hakimiyyəti başçısının birinci müavini | Hər həftənin I günü | $10^{00}$-dan |
| 3. | Musayev Tahir Xaliddin oğlu | rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Hər həftənin II günü | $10^{00}$-dan |
| 4. | Həsənova Gulaya Ziyad qızı | Rayon İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Hər həftənin III günü | $10^{00}$-dan |
| 5. | Qurbanov Aqil Abid oğlu | Rayon İcra Hakimiyyəti başçısının müavini - Aqrar məsələlər şöbəsinin müdiri | Hər həftənin IV günü | $10^{00}$-dan |
| 6. | Abışov Gündüz Fəxrəddin oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Hər həftənin şənbə günü | $10^{00}$-dan |
| | Alıyev Məmməd Oruc oğlu | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | | |
| | Həsənov Mehdi Alı oğlu | Memarlıq və tikinti şöbəsinin müdiri | | |

***Qeyd:***

1. Milli qəhrəmanlar və onların ailələri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri digər imtiyazlı vətəndaşlar müraciət etdikdə dərhal qəbul edilirlər.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları :

**(022) 295-31-55; (022) 295-23-35; qaynar xətt (022) 295-56-70**

XOCALI SOYQIRIMI - 23

# TƏDBİRLƏR PLANI HAZIRLANMIŞDIR

**Azərbaycan xalqına qarşı törədilən faciədən, tarixi genosiddən artıq 23 il ötür. Dünya miqyasında tanınan bu faciə tarixə qanlı hərflərlə yazılmışdır.**

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov Xocalı soyqırımının iyirmi üçüncü ildönümünün keçirilməsinə dair tədbirlər planının hazırlanması haqqında 05 fevral 2015-ci il tarixli sərəncam imzalamışdır. 20/15 nömrəli sərəncama əsasən Xocalı soyqırımının iyirmi üçüncü ildönümünün keçirilməsi ilə əlaqədar tədbirlər planı hazırlanmışdır.

Tədbirlər planına uyğun olaraq Xocalı soyqırımının iyirmi üçüncü ildönümü münasibətilə rayonun bütün idarə, müəssisə və təşkilatlarında yığıncaqların və anım mərasimlərinin keçirilməsi nəzərdə tutulmuşdur.

Rayon məktəbliləri arasında Xocalı soyqırımına həsr olunmuş foto, rəsm və şeir müsabiqələrinin keçirilməsi də tədbirlər planına daxil edilmişdir.

Xocalı soyqırımı günü ilə əlaqədar rayonun bütün yaşayış məntəqələrində Azərbaycanın Dövlət Bayraqlarının endirilməsi də tədbirlər planında öz əksini tapmışdır.

Eyni zamanda Xocalı soyqırımının iyirmi üçüncü ildönümü münasibətilə 26 fevral 2015-ci il tarixdə rayonun bütün təhsil müəssisələrində ilk dərsin Xocalı soyqırımına həsr edilməsinə aid göstərişlər verilmişdir.

Tədbirlər planında rayonda fəaliyyət göstərən dini qurumlar tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş anım mərasimlərinin təşkil edilməsi göstərilmişdir.

26 fevral 2015-ci il tarixdə saat 17:00-da bütün rayon ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi də tədbirlər planında öz əksini tapmışdır.

Həmçinin rayonun kütləvi informasiya vasitələrində Xocalı soyqırımı ilə bağlı materialların verilməsi də tədbirlər planında qeyd edilmişdir.

Tədbirlər planında qeyd olunan bütün məsələlərlə bağlı aidiyyatı idarə və müəssisələrin rəhbərlərinə tapşırıqlar verilmişdir.

**"GÖYƏZƏN"**

# TƏBRİK EDİRİK



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən hər il dövlət qulluqçularına Fəxri adların, orden və medalların verilməsi bu sahədə çalışan insanlara göstərilən diqqət və qayğını bir daha sübut edir.**

Prezident İlham Əliyevin 25 iyun 2014-cü il tarixli sərəncamı ilə həmyerlimiz, uzun müddət dövlət qulluğunda çalışan Faiq Bayraməli oğlu İsgəndərov "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

1955-ci ildə Qazax şəhərində anadan olan F.İsgəndərov 1990-cı ildə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mərkəzi aparatına məsul vəzifəyə dəvət olunmuş, nazirliyin bazar iqtisadiyyatı şöbəsinin rəisi kimi onun fəal iştirakı ilə respublikada aqrar sahənin bazar iqtisadiyyatına keçid konsepsiyası hazırlanmış və respublika hökumətinə təqdim edilmişdir.

F.İsgəndərov 2008-ci ildən hal-hazıradək Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi siyasət, təhlil və proqnozlaşdırma şöbəsində sektor müdiri, baş məsləhətçi vəzifələrində çalışaraq ölkənin iqtisadi siyasəti üzrə mühüm sənədlərin hazırlanmasında fəal iştirak edir.

Biz də öz növbəmizdə Faiq müəllimi "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilməsi münasibətilə səmimi qəlbdən təbrik edir və gələcək işlərində uğurlar arzulayırıq.

**"GÖYƏZƏN"**

# "GÖYƏZƏN" QƏZETİNİN XÜSUSİ BURAXILIŞI ÇAP OLUNMUŞDUR

**Rayonumuzda tikinti-quruculuq işləri geniş vüsət almışdır. "Regionlarin sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən abadlıq və yenidənqurma işlərinin nəticəsidir ki, şəhərimizin siması gündən-günə dəyişir, kəndlərimizə yeni-yeni yollar çəkilir, əhali mavi yanacaqla təmin olunur. Bütün bunlar birmənalı şəkildə deməyə əsas verir ki, Qazax rayonu 2014-cü ili uğurla başa vurmuşdur.**

Rayonun kütləvi informasiya vasitəsi olan "Göyəzən" qəzeti şəhərdə, eləcə də kəndlərdə aparılan quruculuq işləri barədə il ərzində mütəmadi olaraq məqalələr dərc etmişdir. Yeni tikilən və istifadəyə verilən məktəblərin, mərkəzlərin, inşa olunan sosial obyektlərin şəkilləri və haqlarında olan yazılar mütəmadi olaraq qəzetin səhifələrində öz əksini tapmışdır.

Bütün bunlarla yanaşı qəzetin kollektivi 2014-cü ildə rayonda aparılan tikinti-quruculuq işləri barədə xüsusi buraxılış hazırlamışdır. "Qazax-2014: Davamlı inkişafın uğuru" adlanan xüsusi buraxılışda il ərzində görülən bütün işlər geniş əks olunmuşdur. Jurnalın üz qabığında ulu öndər Heydər Əliyevin adını daşıyan parkın şəkli verilmişdir. Jurnal ulu öndər Heydər Əliyevin 1998-ci il 7 oktyabrda Qazaxa səfəri zamanı dediyi: "Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz, bütün Azərbaycan xalqının dayağısınız" sözləri ilə başlayır. Jurnalın üz qabığında əks olunan Qazaxın möhtəşəm emblemi də göz oxşayır.




Jurnalda Azərbaycan Respublikasının Prezideniti İlham Əliyevin "Qazax rayonunun Qazax-Quşçu Ayrım avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamı oxucuların nəzərinə çatdırılmışdır.

2014-cü ildə Qazax rayonunun sosial-iqtisadi göstəriciləri barədə jurnalda geniş məqalə dərc olunmuşdur. Müqayisəli şəkildə çap olunan məqalədə rayonun iqtisadi yüksəlişi rəqəmlərin dili ilə verilmişdir.

2014-cü ildə Qazax rayonunda 4 yeni məktəb tikilib istifadəyə verilmişdir. "Yeni məktəb binalarının açılışı olmuşdur" başlığı altında dərc olunan məqalədə Məzəm, Bala Cəfərli kənd ibtidai məktəbləri, Quşçu Ayrım kənd tam orta məktəb və Qarapapaq kənd ümumi orta məktəbi haqqında oxuculara geniş məlumat verilmişdir. Yeni məktəblərin rəngli foto-şəkilləri jurnalla tanış olanlarda böyük təəssürat oyadır.

Jurnalda Heydər Əliyev parkı və Elm Mərkəzi haqqında da geniş məqalə dərc edilmişdir. Bundan əlavə jurnalda Qüllənin, Uşaq Əyləncə Mərkəzinin, Fəxri qazaxlılar parkının, rayonun ünvanını bildirən Obeleskin, YAP Qazax rayon təşkilatının inzibati binasının, Ədəbiyyat Muzeyinin, Gənclər Mərkəzinin, Bayraq Meydanının, Şahmat Mərkəzinin, Qazax Müalicə Diaqnostika Mərkəzinin, rayon Polis şöbəsinin, Olimpiya İdman Kompleksinin, Mədəniyyət Mərkəzinin, tibb məntəqəsinin, Dəmiryolu vağzalının, Qazax Dövlət Rəsm Qalereyasının fotoşəkilləri jurnalda öz əksini tapmışdır.

"Yeni artezian quyuları" başlığı altında olan yazıda rayonumuzda istifadəyə verilən artezian quyuları barədə ətraflı məlumat verilmişdir. Eyni zamanda jurnalda ağac əkinindən bəhs edən yazı da dərc olunmuşdur.

Həmçinin jurnalda yeni bağça binalarının açılış mərasimləri, uşaq bağçası-körpələr evi haqqında ətraflı məlumat verilmişdir. O cümlədən bağçadakı şəraiti tam dolğun şəkildə əks etdirən fotolar da jurnalda yer almışdır.

Jurnal şair-publisist Elçin İsmayılın "Mənim səcdəgahım, qibləm Qazaxdı" şeiri ilə başa çatır. Bu şeirdə şair sanki Qazax rayonunun ensiklopediyasını misralara düzmüşdür. Oxucu jurnalda olanlarla yanaşı, Qazaxın keçmişi, tarixi abidləri haqqında da bu şeir vasitəsilə məlumat alır.

"Qazax-2014: Davamlı inkişafın uğuru" adlanan xüsusi buraxılış "Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl tərəfindən işlənib hazırlanmışdır.

# Əhalinin tibbi müayinəsinə başlanılmışdır

**Ölkə Prezidenti İlham Əliyevin tapşırığına əsasən fevral ayının 2-dən mart ayının 31-dək respublika əhalisinin ümumi profilaktik müayinələrə cəlb olunması aksiyası çərçivəsində rayonumuzda əhalinin tibbi müayinədən keçirilməsinə başlanılmışdır.**

Bu məqsədlə Müalicə Diaqnostika Mərkəzində, şəhər poliklinikasında və xüsusi həkim briqadaları tərəfindən kəndlərdə əhali tibbi müayinədən keçirilir. Əhali keçirilən bu müayinələrdə aktiv və mütəşəkkil iştirak edir.

Bu aksiya başlayandan indiyədək 15520 nəfər rayon sakini tibbi müayinədən keçmişdir. Onlardan 4200 nəfəri Müalicə Diaqnostika Mərkəzində müayinədən keçirilmişdir. Müayinə zamanı müxtəlif xəstəliklər aşkar olunmuş, daha çox ürək-damar sistemi xəstəlikləri üstünlük təşkil etmişdir. Əhalinin tibbi müayinəsi davam edir.

Aksiyada müayinədən keçən sakinlər, onların sağlamlığının etibarlı şəkildə qorunması, xəstəliklərin erkən aşkar edilərək müalicəyə cəlb olunması məqsədilə keçirilən bu tədbiri yüksək qiymətləndirir və ölkə prezidentinə minnətdarlıqlarını bildirirlər.

2 FEVRAL RESPUBLİKA GƏNCLƏR GÜNÜDÜR

# BAYRAM TƏDBİRİ KEÇİRİLMİŞDİR

**2 fevral Gənclər Günü rayonumuzda da böyük təntənə ilə qeyd edilmişdir. Hər il olduğu kimi bu il də rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı, Yeni Azərbaycan Partiyası Qazax rayon Təşkilatı və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Qazax rayon komitəsinin birgə dəstəyi ilə bayram tədbiri keçirilmişdir. Gənclər Mərkəzində təşkil olunmuş tədbirdə idarə, müəssisə rəhbərləri, rayonda çalışan, təhsil alan fəal gənclər və tələbələr iştirak etmişdir.**

Tədbir iştirakçıları ilk öncə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, abidə önünə gül dəstələri qoymuş və əziz xatirəsini yad etmişlər.

Tədbir Dövlət Himninin səslənməsi ilə başlamış, sonra rayon Gənclər İdman İdarəsinin fəaliyyətindən bəhs edən slayt nümayiş olunmuşdur.

YAP Qazax rayon Təşkilatının sədri Həmid Pənahov tədbiri giriş sözü ilə açaraq bütün gəncləri 2 Fevral Gənclər Günü münasibətilə təbrik etmiş, gələcək fəaliyyətlərində uğurlar arzulamışdır. Qeyd etmişdir ki, ümummilli lider Heydər Əliyevin sərəncamı ilə fevralın 2-nin Respublika Gəncləri Günü elan olunması müasir gəncliyimiz üçün stimul rolunu oynadı. Artıq ictimai həyatın bütün sahələrində gənclərə etimad göstərilir, onlar irəli çəkilir və daha fəal mövqe tutmaları üçün şərait yaradılır. İkinci forumun keçirilməsi isə böyük bir dövlət sənədinin-Gənclər haqqında Qanunun qəbul edilməsi ilə nəticələndi. Məhz bu qanun XXI əsrə hesablanmış sənəd oldu. Ulu öndər Heydər Əliyev gənclərin dövlət hakimiyyəti və idarəetmə orqanlarında iştirakının vacibliyini həmişə vurğulamış, hakimiyyətdə olduğu illərdə bu məsələni öz nəzarətində saxlamışdır.

Böyük öndərin gənclər siyasəti bu gün uğurla davam etdirilir. Respublika Prezidenti İlham Əliyev Azərbaycan gəncliyinə daha bir töhfə vermişdir. 2007-ci ildə Gənclərin üçüncü Respublika forumunun keçirilməsi buna parlaq sübutdur. Forumun nəticəsi olaraq Prezidentin 9 fevral 2007-ci il tarixli sərəncamı ilə 2007-ci il "Gənclər ili" elan olunmuşdur. Bunun başlıca məqsədi sərəncamda deyildiyi kimi, gənclərin ölkənin ictimai-siyasi həyatında fəal iştirakı, sosial problemlərin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsidir.

Rayon gənclər və idman idarəsinin rəisi Vüqar Nəbiyev çıxış edərək tədbirdə iştirak edən bütün gəncləri 2 fevral Gənclər Günü münasibətilə təbrik etmiş, onlara hər zaman diqqət və qayğı göstərildiyini bildirmişdir. Vurğulamışdır ki, Azərbaycanda təşəkkül tapmış yeni tipli məktəb, demokratik mətbuat və yüksək mənəvi mühit gənclərimizin ictimai şüurunun inkişafına çox müsbət təsir göstərir. Hələ XX əsrin 70-ci illərindən formalaşan gənclik, tədricən təkmilləşdi, xüsusilə Azərbaycan müstəqillik qazandıqdan sonra daha fəal və çevik bir qüvvəyə çevrildi. Bununla əlaqədar olaraq Azərbaycan gəncliyinin gələcək taleyinə dövlətimizin qayğısı xeyli artırıldı. Bu



yolda atılan ilk addım isə 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyinin yaradılması oldu. 1996-cı il fevralın 2-də keçirilən Gənclərin birinci Respublika forumu isə ölkəmizdə gənclərlə aparılan işin prioritet istiqamətlərinin müəyyənləşdirilməsinə təkan verdi. Azərbaycan gəncliyinin tərəqqisinə böyük diqqət yetirən ümummilli lider Heydər Əliyev 1999-cu il iyulun 29-da "Dövlət gənclər siyasəti haqqında" fərman imzaladı. Həmin fərmanda deyilirdi: "Dünyada, o cümlədən Azərbaycanda baş verən hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları dəyişməyə başlamışdır".

Sonra MİHİ Qazax rayon komitəsinin sədri İsgəndər Qurbanov çıxış edərək bütün gəncləri təbrik etmiş və dövlətimiz tərəfindən gənclərə böyük etimad, qayğı göstərildiyindən söz açmışdır.

YAP Qazax rayon Təşkilatı Gənclər Birliyinin sədri Vüsal İsmayılov, Qazax Dövlət Sosial İqtisad Kolleci Tələbə Gənclər Təşkilatının sədri Elvira Əfəndiyeva, Azərbaycan Müəllimlər İnstitutu Qazax filialının TGT-nın sədri Sənəm Namazova, AYB Qazax zona filialının üzvü, gənc şair Taleh Mansurov və başqaları çıxış edərək gəncləri təbrik etmiş, Azərbaycan gənclərinin bugünkü uğurlarından, dövlət tərəfindən gənclərə göstərilən diqqət və qayğıdan danışmışlar.

Qazax rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova tədbirdə çıxış edərək gəncləri təbrik etmiş, rayon rəhbərliyi tərəfindən daim diqqət və qayğı göstərilən gənclər üçün yaradılan şəraitdən danışmışdır.

Sonra söz musiqiyə verilmişdir. Gənc aşıqlardan Samir Allahverdiyev və Elvin Səfərovun ifasında səslənən bir-birindən şən, şux saz havaları tədbir boyunca gənclərin könlünü oxşamışdır.

Sonda tədbirdə bir qrup fəal gəncə Diplom və qiymətli hədiyyələr verilmişdir.

**Nüşabə HÜSEYNOVA**

# QAZAX SEMENT ZAVODUNDA GƏNCLƏR GÜNÜ QEYD OLUNMUŞDUR

**Yeni Azərbaycan Partiyası Qazax rayon Təşkilatı Qazax Sement Zavod Ərazi İlk Partiya Təşkilatında 2 Fevral Gənclər Günü münasibətilə tədbir keçirilmişdir.**

Tədbir iştirakçıları ilk öncə zavodun ərazisindəki ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq əziz xatirsəni böyük ehtiramla yad etmişlər.

Ərazi İlk Partiya Təşkilatı Gənclər Təşkilatının sədri Zaur Əliyev zavodun akt zalında keçirilən tədbiri giriş sözü ilə açaraq istehsal müəssisəsində gənclərin əsas aparıcı qüvvə olmasından, son illər Azərbaycan gənclərinin ictimai-siyasi həyatdakı rolunun artmasından danışmışdır.



Sonra YAP Qazax rayon Təşkilatı Qazax Sement Zavod Ərazi İlk Partiya Təşkilatının sədri Əlif Məmmədov çıxış edərək bildirmişdir ki, bu gün ölkə iqtisadiyyatının, siyasətinin, mənəvi həyatının elə bir sahəsi yoxdur ki, orada gənclər mühüm mövqe tutmamış olsun. Gənclərimiz fəal həyat mövqeyi tutmaqla cəmiyyəti irəliyə doğru aparan hərəkətverici qüvvəyə çevrilmişdir. Bütün bunlar ölkəmizdə həyata keçirilən gənclər siyasətinin düzgün istiqamətləndirilməsi ilə bilavasitə bağlıdır.

YAP Qazax rayon Təşkilatı Gənclər Təşkilatının sədri Vüsal İsmayılov, gənclərdən Kamandar Vəliyev və başqaları söz alaraq qeyd etmişlər ki, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının səmərəli həyata keçirilməsi elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin daha böyük nailiyyətlər qazanmasının ən bariz nümunəsidir.

**Elçin İSMAYIL**

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

## 2015/2016-cı tədris ili üçün DİN-in Polis Akademiyasına əyani təhsil üzrə müdavimlərin qəbulu elanı

Azərbaycan Respublikası DİN-in Polis Akademiyasına qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm) çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla) buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (cari ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və həmin ayın 31-dək yaşı 18-ə çatmamış) Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.

Abituriyentlər DİN-in xüsusi - həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında Nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər. (Fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma-6 dəfə; qaçış 100 metr məsafəyə-15 saniyə və 1000 metr məsafəyə-4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması-18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması-18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması-18 dəfə, qaçış 100 metr məsafəyə-19 saniyə və 1000 metr məsafəyə-5 dəqiqə 30 saniyə).

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az internet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına göndərilir.

İmtahanlar test üsulu ilə III ixtisas qrupunun fənləri üzrə Azərbaycan və Rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə komissiyanın internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş abituriyentlər dövlət hesabına yataqxana, geyim forması, təqaüd və yeməklə təmin edilir, təhsil aldıqları müddətdə yataqxanada qalırlar. Akademiyada tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir. Akademiya barədə ətraflı məlumat www.pa.edu.az internet saytında yerləşdirilmişdir.

Məzunlara "Hüquqşünaslıq" ixtisası, "Polis leytenantı" xüsusi və "Ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə Daxili İşlər Orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2015-ci ilin aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası Daxili İşlər Orqanlarında xidmətkeçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən abituriyentlər DİN-in Polis Akademiyasına qəbul edilmirlər.

DİN-in Polis Akademiyasına qəbul üçün namizədlər daimi qeydiyyatda olduqları ərazi üzrə polis idarə və ya şöbələrinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

**- Şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notariat qaydada təsdiq olunmuş surəti);**

**- Təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);**

**- Yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;**

**- Ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və notariat qaydada təsdiq olunmuş surəti);**

**- Oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;**

**- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli donuq kağızda);**

Ərizə və sənədlərin qəbulu 2015-ci il yanvar ayının 21-dən fevral ayının 28-dək hər gün (bazar günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək aparılacaqdır.

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**(012) 454-12-78; (012) 590-97-76;**
**Qazax RPŞ-si**
**(070) 725-87-82**
**(050) 392-02-21**
**(022) 295-14-97**

**"Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu 2015-ci il üçün KOTİROVKA SORĞUSU ELAN EDİR**

1. Digər maşın və avadanlıqların alınması

**Ünvan: Qazax şəhəri, Heydər Əliyev Prospekti - 54**
**Tel: (02229) 5-43-87**

### İTMİŞDİR

Yaqubov Ənvər Şəmistan oğluna məxsus 1988-ci ildə Qazax şəhər İ.Qayıbov adına 3 saylı tam orta məktəbi tərəfindən X sinfi bitirməsi üçün verilmiş, A № 356089 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor:**
**ELÇİN İSMAYIL**

**TƏSİSÇİ:**
**QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ**

**ÜNVAN:**
**QAZAX ŞƏHƏRİ,**
**H.Z.TAĞIYEV KÜÇƏSİ 20**
**TELEFON: 5-02-00, (baş redaktor)**
**5-12-27 (şöbələr)**
**MOB: (055) 621-03-53**

**KAPİTAL BANK**
**BANK HESAB**
**№ AZ69AİİB33010019443660233136**
**VÖEN: 4200134061 KOD: 200361**
**QEYDİYYAT №442**
**TİRAJ: 3000**

**Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.**

**Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "SQ" mətbəəsində çap edilib.**
***Fotolar: Salmanındır.***